# ƏDƏBİYYATŞÜNASLIQ

UOT 82:801.6; 82-1/-9

## BÖYÜK İDEALLAR ŞAİRİ

**İ.S.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***Ifrataliyeva@gmail.com***

*Rəsul Rza 30-cu illər poeziyamızın ilk nəslinə mənsub olan şairlərdəndir. Şairin poetik istiqamətinin formalaşmasında ilk əsərlərinin böyük əhəmiyyəti olmuşdur. R.Rzanın yaradıcılığı özünün aktuallığı, orijinallığı ilə seçilmiş, xarakter əsərləri ilə poeziyamızı zənginləşdirmişdir.*

**Açar sözlər:** lirika, poeziya, problematika, poema, forma

XX əsrin 30-cu illərində təşəkkül tapmağa başlayan yeni Azərbaycan poeziyasının ilk nəslinə mənsub olan dünya şöhrətli görkəmli sənətkarlardan biri də xalq şairi Rəsul Rzadır. 1920-ci illərin sonlarından etibarən fasiləsiz poeziyamızın yetkinləşməsində və zənginləşməsində görkəmli xidmətləri vardır.

Bir sənətkar kimi R.Rzanın ədəbiyyatımızda həmişə öz sözü, öz səsi, öz yeri olmuş, fərdi yaradıcılıq siması və orijinal yazı manerası onu başqa qələm yoldaşlarından fərqləndirmişdir. R.Rza sənətinin ayrılmaz qolunu onun qələmə aldığı əsərlərindəki xəlqilik, yüksək vətəndaşlıq idealları, bəşəri duyğuların tərənnümüdür. Akademik Bəkir Nəbiyevin yazdığı kimi "bu keyfiyyətləri şairin təqribən 50 il ərzində yazdığı ən yaxşı əsərlərdən üzü bəri ardıcıl surətdə görmək mümkündür" (4).

Poetik istiqamətin formalaşmasında inadkar axtarışlar aparan R.Rzanın ilk mətbu şeiri 1927-ci ildə "Qığılcım" almanaxında çap etdirdiyi "Bir gün" şeiri olmuşdur.

R.Rzanın yaradıcılığı və ictimai fəaliyyəti çoxsahəli, çoxqatlıdır. "R.Rza müasir həyatın, bugünkü ictimai varlığın pafosunu, əsas aparıcı meyllərini duyan və ona əsərlərində əks-səda verən, əsərlərinin məna, ifadə və forma gözəlliyinə xüsusi diqqət yetirən, sözün həqiqi mənasında, sənətin, bədii yaradıcılığın əzablarından zövq alan şairlərimizdən biridir" (1, 439).

Gənc Rəsul ilk şeirlərinin birində öz məramını belə ifadə edir:

-Rza, durma
-Rza, yaz,
Qarşı gülümsəyən yaraşıqlı yaza yaz.
Mübarizə bu gün də var, yarında
Mən də onun ən ön sıralarında (5, 89)

Şairin poetik "mən"i bu əsərdə böyük fəallığa, cavabdehliyə, vətəndaşlıq məsuliyyətinə malik olmaqla, həm də bir səmimiyyət, öz daxili hiss və duyğuları ilə sərbəst həsb-hal hakimdir:

Mənim şeirim bu günüm,
Bu gündür mənim şeirim (5, 44)

Deməli, təzadlıq, ziddiyyətli, kəşməkəşli illər, günlər şeirə çevrilməməlidir, bu çevrilmə - mübarizələrlə dolu həmin günlər məhz mənim şeirimin məğzi, mahiyyətidir.

Rəsul Rza çoxəsrlik milli poeziyanın böyük ənənələri üzərində yetişən, xalq yaradıcılığından, canlı danışıq dilindən faydalanan bir şairdir.

R.Rza bədii ədəbiyyata gəldiyi gündən şeirin, sənətin məna və mahiyyətini, vəzifəsini dərindən duymuş, onun həyatı dəyişdirici rolunu gözəl dərk etmiş, tam yarım əsr öz qələmini bu amal uğrunda vətəndaş bir şair kimi sədaqətlə işlətmişdir.

Şair sənətinin məqsədini xalqa, vətənə xidmətdə görərək ilk ədəbi təcrübələrindən tutmuş son əsərlərinə kimi qələmini həmişə bu uğurda işlətmiş və bir-birindən gözəl şərqilər, şeirlər, poemalar yaratmışdır. Müəllif tamamilə tərəddüdsüz olaraq belə qənaətdədir ki, "şeir xalq üçün yazılır, onu təqdir etmək isə ən nüfuzlu tənqidçidən daha çox ondan – şeirin, sənətin həqiqi qədirşünas xalqdan asılıdır" (2, 440).

Hansı şeirim,
Hansı sözüm
Yaşayacaq məndən sonra
Mən bilmirəm
Eldən soruş (5, 31)

Onun ən böyük dərdi, ən ağır möhnəti də elin qəmi, elin kədəridir:

Mən kölgəsiz bağ görmədim
El dərdi tək-dərd görmədim
Gözlərimi yumub açdım
Neçə dostu sağ görmədim (5, 56)

Onun otuzuncu illərdəki poetik uğurları ictimai həyatın təzadlı, təlatümlü mübarizələr dövrünün tələbləri ilə bağlı idi. Ona görə də, R.Rza həmin illərdən novator şair kimi yüksək qiymətləndirilir, onun poeziyasında məzmun, mətləb, məna və problematika təzəliyi ilə yanaşı, həm də forma, bədii sənətkarlıq yeniliyi hamının diqqətini cəlb edirdi.

Müharibə illəri R.Rzanın şeiri üçün mənəvi və sənətkarlıq cəhətdən sınaq mərhələsi oldu. Vətən müharibəsi illərində şair bir silsilə şeirlər, oçerklər,

publisistik əsərlər, habelə "Vəfa" pyesini yazmışdır. Onun "Bakı danışır", "Vətən", "Leninqrad", "Yurdunun qəhrəmanı", "And", "İntiqam", "Pilot qardaş", "Üç oğul", "Əsgər anasının sözləri", "Bəxtiyar" və digər şeirlərində müharibə dövrünün acılı-şirinli xatirələri, dramatik lövhələri, təəssüratları, ciddi-düşündürücü sosial-siyasi situasiyaları əks etdirilmişdir. Qəhrəmanlıq və vətəndaşlıq, iradə və dözüm, doğma yurd, ocaq hissi, böyük insanı iztirab və itkilər bu şeirin mənən, fikri möhkəmləndirdi, ona bir sadəlik və aydınlıq gətirdi" (6, 100).

R.Rza lirikası hansı mövzuda yazılmasından asılı olmayaraq öz dərin nikbinliyi, insan hərarətliliyi ilə oxucusunu ələ alırdı, isindirici mübarizə həvəsini alovlandırırdı.

Sabah qışsız, boransız
Bir həyat qurulanda,
O girdabın suları aynatək durulanda
Qalib çıxan xalqların
Böyük təntənəsində
Pərdə-pərdə qoy axsın
Sənin məğrur səsin də… (5, 73)

deyə azərbaycanlı əsgərə müraciətlə deyilən misraların ahəngi, müharibənin ürək dağlayan səhnələrini canlandıran "İntiqam" şeirinin ifadə etdiyi sərt, göynədici fəryad, yollar ayrıcında dayanaraq cəbhədəki döyüşçü sevgilisinin xəyalı ilə yaşayan qadının kövrək daxili nitqi ("Vəfa"), düşmənlə qeyri-bərabər döyüşdə həlak olan əsgərin ("Bəxtiyar") şərəfinə bəslənən ölümsüzlük himni R.Rza lirikasının tükənməz fikri başlanğıcından xəbər verirdi.

Müharibədən əvvəl və sonrakı illərdə Rəsul Rzanın bir sənətkar kimi əxz etdiyi mənəvi və yaradıcılıq təcrübəsi onun "Lenin" kimi əzəmətli bir poemanı yazması ilə nəticələndi. Məhz bu poemada R.Rza poeziyada axtarışlarına əsaslı yekun vurdu və öz yaradıcılığının yeni, daha məhsuldar mərhələsini hazırladı. Məhz buna görə də R.Rzanın əllinci illərin ortalarından yaradıcılığında yeni mərhələ başladı. Bu mərhələdə şairin daha çox inkişaf edən, zənginləşən lirikasını onun bütün yaradıcılığının nəticəsi kimi izah etmək daha doğrudur. Asfalt döşəməni yarıb yaşıl alov kimi qalxan nərgiz topası ("Nərgiz"), qışın hələ tamam çəkilmədiyi bir vaxtda şaxtadan qorxmayıb torpaqdan baş qaldırıb xoş xəbərli bir elçi kimi yazın yaxınlaşmasını insanlara bildirən novruzgülü ("Novruzgülü"), birəm-birəm qar yağsa da, açıq pəncərədən yazın yaxınlaşmasını duyan şairin işıqlı, xeyirxah daxili aləmi ("Yaz gəlir"), bir sözlə bütün obrazlar, lirik ovqatlar şairin poetik fəaliyyətinin yeni bir istiqamətindən xəbər verirdi.

Yaradıcılığının bu mərhələsində R.Rza lirikası insan haqqında fikir və hisslərlə, düşüncələrlə və həyəcanlarla aşılanır. Onun poeziyasının lirik "mən"in humanist insan konsepsiyasının daşıyıcısı kimi yüksəlir.

Mən işığam
Qaranlığın qənimi
Mən insanam

Daşıyıram qəlbimdə
Dünyaların sevincini, qəmini (5, 28)

Bu şairin poeziyasında fəal humanizmin poetik təsdiq forması idi. "Qızılgül olmayaydı", "Bir gün insan ömrüdür" kimi poemalar və silsilələrdə bu poetik insan konsepsiyası özünün dolğun ifadəsini tapırdı.

R.Rzanın istedadının ikinci doğuluşu altmışıncı illərə aiddir. Onun möcüzəli poetik təbi parlamağa, cilalanmağa başladı. Bu dövrdə qələmə aldığı əsərlərdə fəlsəfi dərinlik, sözün həqiqi mənasında fikir bir qədər də çoxalır. Bunun əsas səbəbi odur ki, Rəsul Rzanın poeziyası öz şirəsini canlı həyatdan alır, şeirlərinin bədii sözün ecazkar qüvvəsi ilə bəzəməyi, yüksək sənət nümunəsi kimi təqdim etməyi bacarır.

Biz şairin məşhur "Rənglər" silsiləsini də məhz xalqın vətənin, insanın dərdini, taleyini düşünən və düşündükcə də mənəvi intibahlar prosesində filosoflaşan bir sənətkarın yaradıcılıq axtarışlarının nəticəsi əsas etibarilə poetik qələbəsi kimi qiymətləndiririk:

Ağ, qara, sarı, yaşıl, qırmızı
Hərəsi bir sınaqla bağlıdır.
Biri həsrətimizi xatırladır,
Biri dərdimizi, biri arzumuzu.
Hərəsində bir məna arayıb,
Bir səbəb görən var.
Kim bilir, kim sınamış,
Kim bunu ilk dəfə demiş (5, 75)

Silsilənin "Üvertüra"sından gətirdiyimiz bu misraların məna, məzmun və fəlsəfi yükü, assosiativ düşündürmə siqləti göz önündədir.

Rəsul Rza 70-ci illərdə də çox gərgin, fasiləsiz, yorulmadan ideallarının yolunda poetik qələmini uğurla işlətdi. Onun zəngin yaradıcılığında satirik-yumoristik şeir nümunələrinə "Vəfa", "Qardaşlar" kimi orijinal pyeslərə ədəbi-tənqidi məqalə və esselərə, yol xəritələrinə, külli miqdarda bədii tərcümələrə rast gəlmək olar.

Rəsul Rza novator şairdir. Prof. C.Abdullayev bu münasibətlə yazır ki, "Rəsul Rzanın novator, orijinal, bədii yaradıcılığı həm daxili, həm zahiri, həm məzmunu, həm forması ilə bərabər Azərbaycanın zəngin xalq şeiri klassik poeziyasının gözəl ənənələrinin davamlı və inkişafıdır" (1, 452).

Rəsul Rza poeziyası bir də daxilən narahatçılıq və həssaslığı ilə seçilir. Belə ki, şairin yaradıcılığında ötən əsrin 30-80-ci illərində Azərbaycan ədəbi-mədəni həyatı ictimai siyasi mühiti, başlıcası isə insanlar onların daxili aləmi, qayğı və həyəcanları öz əksini tapmışdır. Yazıçı Anarın söylədiyi kimi "ədəbiyyata gəlişindən ölüm gününə qədər Azərbaycan həyatının elə bir problemi çətin tapılar ki, Rəsul Rza yaradıcılığında əks edilməmiş olsun". Doğrudan da 1930-cu illərin birinci yarısında ilhamlı quruculuq həvəsi, 37-ci il faciələri, Azərbaycanın milli azadlıq hərəkatı, əzəli torpaqlarımızın-Qarabağa, Naxçıvana erməni tamahının fəsadları, saxta "beynəlmiləlçilik" adı altında

dilimizə yuxarıların etinasızlığı, didərginlərimizin acı taleyi-bütün bu sadalanan mövzular Rəsul Rza yaradıcılığının mətləbləri, fərəhi və ağrı-acılarıdır. Əlbəttə, bu yazılara görə Rəsul Rzaya qarşı hücumlar olmuş, özlərinin çirkin çıxışları ilə şairi öz yolundan döndərməyə çalışanlar yanılırdılar. Hörmətli şairimiz ömrü boyu ittihamlardan qorxub geri çəkilməmişdir - öz sozünün ağası olmuşdur. O illəri xatırlayan akademik Bəkir Nəbiyev şair Rəsul Rzanın 100 illiyi münasibətilə dərin məzmunlu məqaləsində yazır: “Sovetlərin o zamankı bədnam rəhbərliyi Rəsul Rza və A.Zamanovu gözümçıxdıya salmaqdansa, onların duyduqları həyəcan təbilinə siyasi qiymət versəydilər, 80-cı illərin sonları, 90-cı illərin əvvəllərində bütün Qafqazın məruz qaldığı faciələrin miqyası bu qədər geniş olmazdı” (4).

1980-cı ildə yazdığı “Şuşam mənim” şeiri çox baha-başa gəlmişdi, onu millətçi kimi damğalamış, Azərbaycan Ali sovetinin deputatlığından kənar etmişdilər. Azərbaycan ensiklopediyasının sədri kimi də şairin mövqeyi sarsıdılmışdır.

Rəsul Rzanın çox zəngin poetik yaradıcılığı mühüm bədii hadisələrdən biridir. Ümumilikdə şairin yaradıcılığı Azərbaycan Sovet dövrü poeziyasının keçdiyi inkişaf mərhələlərini, onun ümumi spesifik cəhətlərini əks etdirmək baxımından səciyyəvidir.

Rəsul Rza dünya şöhrəti qazanmış şairlərdəndir. Onun adı nəinki ölkəmizdə, hətta onun sərhədlərindən çox uzaqlarda məşhurdur. Kanadalı yazıçı və ictimai xadim D. Karter “Sovetskaya literatura” jurnalının redaksiyasına yazır: “Sizə Rəsul Rzanın 3 şeirini göndərirəm. Nəşriyyatımız onları təqribən 1 il bundan əvvəl çap etdirmişdir. Bizə təəccüblü gəldi ki, həmin əsərləri 2-ci dəfə, indi isə 3-cü dəfə çap etməli oluruq. Ancaq Kanadada poeziyanı az oxuyur və şeiri çox nadir hallarda təkrar nəşr edirlər. Amma Rəsul Rzanın şeirləri elə yüksək humanizmə malikdir ki, Kanadada və ABŞ-da minlərlə oxucu onları cəmi bir neçə ay ərzində alıb oxudu” (3).

Rəsul Rzanın lirikası böyük insani hisslərin, gərgin insani fikirlərin dünyasıdır. Xarakterik cəhətdir ki, Rəsul Rzanın tərənnüm etdiyi insan mücərrəd varlığı deyil, sosial tərəqqini, sosial sarsıntıların əzablı yollarını keçmiş müasirimiz idi. Rəsul Rzanın təmkinlə, düşünə-düşünə vəsf etdiyi insan böyük əhatəli zaman kontekstində, yəni keçmiş, indi və gələcək kontekstində dərk olunur.

Rəsul Rza lirikası yaddaş lirikasıdır. Dünən, bu gün, gələcək haqqında yaddaş bu lirikanın sətrlərinə həkk olunub qalmışdır. “Gələcəyə səyahət” şeirində o öz müasirində gələcəyə inam hissi oyadırdı:

İnan bu sabaha,
Oğlum, qızım,
Bacım, qardaşım,
İnsan
Yaşamaq olarmı inanmasan! (5, 21)

## ƏDƏBİYYAT

1. Abdullayev C. Müasir Azərbaycan ədəbiyyatı. Dərslik. 2 cilddə. I c. Bakı: BDU, 2007, 504 s.
2. Abdullayev C. Dərin düşüncələr poeziyası. “Bakı”qəz., 1980, 19 may.
3. “Ədəbiyyat və incəsənət” qəz., 1964, 16 oktyabr.
4. Nəbiyev B. Şeirimizin klassiki və müasiri. “Ədəbiyyat” qəz., 2010, 10 may.
5. R.Rza. Seçilmiş əsərləri. 5 cilddə, I c., Öndər, 2005, 304 s.
6. Salmanov Ş. Poeziya və tənqid. Bakı: Yazıçı, 1987, 208 s.

## ПОЭТ ВЕЛИКИХ ИДЕАЛОВ

**И.С.АЛИЕВА**

## РЕЗЮМЕ

Один из первых создателей современного азербайджанского стиха народный поэт Расул Рза прошел долгий творческий путь. Поэт, посвятивший 73 года своей жизни миру поэзии, начал литературную деятельность в 1927 г. Он был одним из мастеров слова, тонко чувствовавший в своих произведениях пафос современной жизни, нынешнее общественного бытия и получавший особое наслаждение от красоты формы и содержания своих произведений.

В статье речь идет о творчестве Расула Рзы, о своеобразии его поэзии, о форме, содержании языковых и стилистических особенностях его лирических – эпических произведений.

Народный поэт, создатель современного азербайджанского стиха, мастер слова, в творчестве которого пафос современной жизни, своеобразие поэзии, лирические – эпические произведения.

**Ключевые слова:** лирика, поэзия, проблематика, поэма, форма

## THE POET OF GREAT IDEALS

**I.S.ALIYEVA**

## SUMMARY

One of the creators of modern Azerbaijani verse, the national poet Rasul Rza passed a long creative way. The poet who devoted 73 years of his life to poetry began his literary activity in 1927. He was one of the skilled reciters who felt pathos of contemporary life and social being in his works and enjoyed the beauty of the form and content of his works. The article deals with Rasul Rza’s creativity, originality of his poetry, the form, content, language and stylistic peculiarities of his lyric epic works.

**Key words:** National poet, creator of modern Azerbaijani verse, skilled reciter, pathos of contemporary life, originality of poetry, lyric epic works.